# AZƏRBAYCAN DİLÇİLİYİ

UOT: 811.512.162

TÜNZALƏ BAXŞIYEVA*

## AZƏRBAYCAN ETNONİMLƏRİ

### XÜLASƏ

Etnonimlərini öyrənmək üçün tarixi mənbələrə, qaynaqlara, tarixçilərin, coğrafiyaşünasların əsərlərinə, toponimik leksikaya müraciət etmək vacibdir. Bunları nəzərdən keçirmədən etnonimlərlə bağlı mükəmməl tədqiqatdan söhbət gedə bilməz. Tayfa adlarını tədqiq etməklə onomastikanın digər sahələri üçün materiallar əldə etmək mümkündür. Azərbaycan etnonimlərinin bir qisminin formalaşmasında iştirak edən leksik vahidlər müasir Azərbaycan dili baxımından köhnəlmişdir. Qədim türk sözləri əsasında yaranan tayfa adlarının etimoloji aspektdən təhlili mühüm əhəmiyyət daşıyır. Bəzi etnos adları özündə qədim fonetik, qrammatik, leksik, semantik xüsusiyyətləri əks etdirir. Azərbaycan etnonimlərinin bir qisminin formalaşmasında iştirak edən leksik vahidlər müasir Azərbaycan dili baxımından köhnəlmişdir. Qədim türk sözləri əsasında yaranan tayfa adlarının etimoloji aspektdən təhlili mühüm əhəmiyyət daşıyır. Azərbaycan dilində işlənən etnonimlər əmələ gəlmə xüsusiyyətlərinə görə antroponimlərdən əmələ gələn etnonimlər, toponimlərdən əmələ gələn etnonimlər, etnonimlərdən əmələ gələn etnonimlər, zoonimlərdən əmələ gələn etnonimlər, sənət, peşə, məşğuliyyət və s. bildirən sözlərdən əmələ gələn etnonimlər, dini xarakterli sözlərdən əmələ gələn etnonimlər, geyim və tayfaya aid digər əşyaların adlarından əmələ gələn etnonimlər, zahiri əlamət, rəng və s. bildirən sözlərdən əmələ gələn etnonimlər şəklində qruplaşdırmaq olar.

**Açar sözlər:** *etnonim, tayfa, ad, araşdırma, tədqiq*

**Giriş.** Onomastik leksikanın ən maraqlı və zəngin sahələrindən birini etnonimlər təşkil edir. Etnonimlərin tədqiqi sayəsində etnogenetik prosesləri öyrənmək mümkündür. Xalqımızın dilini, dinini, mənəviyyatını, milli varlığını, tarixini, coğrafiyasını, adət-ənənəsini özündə əks etdirən ən qiymətli dil vahidlərindən olan etnonimlərin araşdırılması təkcə Azərbaycan dilçiliyi üçün deyil, həm də türkologiya üçün əhəmiyyətlidir. Tayfa adlarının linqvistik cəhətdən tədqiqi nəticəsində Azərbaycan xalqının və dilinin formalaşmasında etnonosların rolunu izah etmək mümkündür. Etnonimlərlə bağlı araşdırmaların tarixi-müqayisəli aspektdə aparılması əsasdır. Tədqiqat tarixən Azərbaycan ərazisində mövcud olan tayfa, etnik qrup, qəbilə, tirə, xalq adlarını müəyyənləşdirmək üçün qiymətli material verir. Bu etnoslar dilimizin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynamışlar. Etnonimlərin araşdırılması həm Azərbaycan dili, həm də qohum türk dillərinin tarixini öyrənmək baxımından çox dəyərlidir. Azərbaycan ərazisində yaşayan türk mənşəli tayfaların bir qismi tarixi inkişafda bir-birinə qaynayıb-qarışmışlar. Etnonimlərini öyrənmək üçün tarixi mənbələrə, qaynaqlara, tarixçilərin, coğrafiyaşünasların əsərlərinə, toponimik leksikaya müraciət etmək vacibdir. Təbii ki, bütün bunları nəzərdən keçirmədən etnonimlərlə bağlı mükəmməl tədqiqatdan söhbət gedə bilməz. Tayfa adlarını tədqiq etməklə onomastikanın digər sahələri üçün materiallar əldə etmək mümkündür. Azərbaycan etnonimlərinin bir qisminin formalaşmasında iştirak edən leksik vahidlər müasir Azərbaycan dili baxımından köhnəlmişdir. Qədim türk sözləri əsasında yaranan tayfa adlarının etimoloji aspektdən təhlili mühüm əhəmiyyət daşıyır. Bəzi etnos adları özündə qədim fonetik, qrammatik, leksik, semantik xüsusiyyətləri əks etdirir. Etnonimik vahidlərdə təsadüf edilən qədim elementlərin bir hissəsi müasir Azərbaycan dili baxımından arxaik sayılır. Etnonimlərin formalaşmasında qədim türk qəbilə, tayfa dillərinə aid çoxlu leksik vahidlər vardır ki, bu sözlərə yazılı mənbələrdə, müasir türk dillərində, dialekt və şivələrdə az və çox dərəcədə rast gəlinir. Bəzi sözlər bu gün müasir Azərbaycan dilində fərqli fonetik variantda işlənir.

Etnonimlərin bir qismini qədim türk sözləri əsasında formalaşan onomastik vahidlər təşkil

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Tətbiqi Dilçilik şöbəsi, filologiya elmləri doktoru, tunzale-111@mail.ru

edir. Onlardan biri də tuğ tayfa adıdır. Tuğ etnonimi qədim leksik vahidlərdəndir. Tuğ tayfalarını qıpçaqlara aid edirlər. Müasir Azərbaycan dili baxımından tuğ sözü arxaik sözdür və qədim dövrlərdə müxtəlif anlamlarda işlənmişdir:

"1. Qədimdə: padşahların, vəzirlərin və ya yüksək rütbəli şəxslərin baş geyimlərinə taxdıqları tük və ya saçaq şəklində bəzək.

2. Qədimdə: at quyruğu qıllarından düzəldilmiş qoşun bayrağı; ümumiyyətlə bayraq.

3. Keçmişdə: məhərrəmlik mərasimində güzgülər və s. ilə bəzədilmiş cürbəcür şəbih və dəstə əlaməti" [Azərbaycan dilinin izahlı lüğəti, 2006. IV c, s.373].

Müasir Azərbaycan dilində etnonimlərin hərtərəfli geniş tədqiqinə ehtiyac vardır. Dilimizin lüğət tərkibinin yaranmasında, zənginləşməsində xüsusi rolu olan etnosları, onaların adlarını dərindən elmi cəhətdən araşdırmaq, təhlil etmək müasir dilimizlə yanaşı Azərbaycan dil tarixinin bir çox mürəkkəb məsələlərinin tədqiqi baxımından da faydalıdır. Etnonimlərin sistemli şəkildə araşdırılması dilçiliyin fonetika, leksikologiya, dialektologiya, dil tarixi, semasiologiya, etimologiya və s. sahələri üçün də dəyərlidir. Dilimizdəki etnonimlərin yaranmasında antroponim, toponim, hidronim, zoonimlərin və s. rolu vardır. Xüsusən, etnonimlərin araşdırması toponimika sahəsi üçün də dəyərlidir. Müasir Azərbaycan dilində etnonimlər müxtəlif aspektlərdən linqvistik araşdırmaya cəlb edilərək həm struktur, həm də leksik-semantik cəhətdən müəyyən qədər tədqiq olunmuşdur. Lakin bununla yanaşı bu sahədə bir çox problemlər həll edilməmiş qalmaqdadır. Dilimizdə işlənən sözlər kimi etnonimlər də leksik, morfoloji, sintaktik üsullarla əmələ gəlir. Bu yolla əmələ gələn etnonimlər də quruluşca sadə, düzəltmə və mürəkkəb olurlar.

Etnonimlərinin leksik-semantik xüsusiyyətlərinin araşdırarkən bir sıra məna xüsusiyyətlərinə görə ümumiləşdirmələr aparmaq mümkündür. Etnonimlər məna əsasın görə fərqli leksik vahidlər əsasında formalaşır. Bu cəhətləri nəzərə alınaraq ümumiləşmələr aparmaq mümkündür. Etnonimlərin yaranmasında antroponimlərin rolu böyükdür. Antroponimlərdən əmələ gələn etnonimlər həm əsas adlardan, həm də köməkçi adlardan (ləqəblərdən) yaranmışdır. Azərbaycanda şəxs adlarından yaranan etnonimlər ləqəblərdən adlardan düzələn tayfa adlarından daha çoxdur.

Türk tayfalarının tarixini özündə əks etdirən abidələrdən biri olan XIV əsr tarixçisi Fəzlullah Rəşidəddinin "Cami ət-təvarix" ("Tarixlər toplusu") əsərində tayfa adlarından bəhs edilərkən onların bir qisminin şəxs adlarından yarandığı göstərilir. Məlum olduğu kimi, bu əsərin tam mətni dövrümüzə qədər gəlib çatmamışdır. İstanbulda Topqapı kitabxanasında yalnız abidənin "Oğuznamə" adı kimi tanınan hissəsi saxlanılır. Mənbədə türk tayfaları ilə bağlı verilmiş zəngin məlumatların arasında oğuzlarla bağlı əfsanələrə rast gəlinir. Fəzlullah Rəşidəddin əsərinin qiymətli cəhətlərindən biri də burada ayrı-ayrı tayfa adlarının mənşəyinin, semantikasının araşdırılmasıdır. O, "Oğuznamə" əsərində Oğuzun tarixi şəxsiyyət olduğunu və oğuz tayfalarının ad-larının onun nəslindən olan şəxslərlə bağlı olduğunu yazır. "Oğuznamə"də Oğuzun nəvələrinin adı ilə bağlı tayfa adlarını qeyd edilmişdir. Onlardan bir neçəsinə diqqət yetirək. Əsərdə göstərilir ki, salur tayfa adı Oğuzun beşinci oğlu olan Dağ xanın oğlu Salurun adını özündə əks etdirir. "Salur; adının anlamı-hara getsə qılıncı və toppuzu hərəkətdə olan; Onqonu-üği; ət payı (ülüşü)-bel sümüyü" [Rəşidəddin: 2006, s. 58]. "Kitabi-Dədə Qorqud" dastanında oğuz elində salurlar ən şərəfli yeri tuturdular. Oğuz elinin qüdrətli hakimi Qazan bəy salurlardan idi. Bayat tayfasının adı Oğuzun oğlanlarından Gün xanın oğlu Bayatın adı ilə bağlıdır. "Bayat; adının anlamı-dövlətli və neməti bol olan deməkdir; Onqonu-ağ şahin; ət payı (ülüşü)-arxa ayağın sağ baldırı" [Rəşidəddin: 2006, s. 55]. Düyər tayfa adı Oğuz xanın nəvəsi Ay xanın oğlu Düyər şəxs adı ilə əlaqədar yaranmışdır. "Düyər; adının anlamı-toplanmaq naminə; Onqonu-qartal; ət payı (ülüşü)-arxa ayağın sağ budu" [Rəşidəddin: 2006, s. 56].

Əbülqazi Bahadur xan «Şəcəreyi tərakimə» əsərində oğuz tayfaları ilə bağlı maraqlı məlumatlar verir. Əsərdə konkret şəxslərin adları ilə bağlı tayfa adları öz əksini tapmışdır. Belə adlardan biri də Ulaş antroponimidir. Əbülqazi Bahadur xan Salur tayfasından olan Ulaşın Oğuz xanı görən şəxslərdən olduğunu və onun haqqında Dib Bakuy xana söhbətlər etdiyini yazır. [Əbülqazi Bahadur xan: 2002 s. 73]. XIX əsrdə Azərbaycanda ulaş tayfa adı ilə bağlı Yelizavetpol quberniyasının Zəngəzur qəzasında

Birinci Ulaşlu, İkinci Ulaşlu, Bakı quberniyasının Göyçay qəzasında Ulaştı-Şıxlı kənd adları qeydə alınmışdır.

Müxtəlif şəxs adlarına – tayfa, nəsil, tirə başçılarının adlarına şəkilçilər qoşularaq düzəltmə etnonimlər yaranır: Cəfərli, Qasımlı, Cəlillər, Cavadlar, Nağılar və.s. -lar,-lər və an şəkilçiləri müəyyən zahiri əlamət, ləqəb, ayama və s. ilə tanınmış nəslə və ya nəsil başçılarına mənsub, aid konkret qrup mənası ifadə edən etnonimlər yaradır. Onlardan etnonimiyaya gələnlərdən bəziləri aşağıdakılardan ibarıtdir: kosalar, lallar, ağbaşlar, qırmızısaqqallar, gödəklər, karrar (<karlar), qaraboyunlular. [Əhmədov T.M : 1991. s.163]

Onomastik sistemdə toponimlərdən əmələ gələn etnonimlər müəyyən bir hissəni əhatə edir. Bu yolla əmələ gələn tayfa adları aid olduğu etnosun yaşadığı məkanı göstərir. Əksərən toponimlərdən yaranan etnonimlər etnik qrupun məskunlaşdığı ərazinin adına morfoloji şəkilçi əlavə etməklə yaranır. Toponimlər əsasında formalaşan etnonimlərin bəzilərinə nəzər salaq:

Şamlı etnonimi Şam şəhərinin adı ilə bağlı yaranmışdır. Azərbaycanda Qəbələ və Zəngilan rayonlarında yerləşən Şamlı kəndləri bu tayfanın adını özündə yaşadır. Etnonimin şamlı adlanmasına səbəb onların əvvəlki dövrlərdə məskunlaşdıqları ərazi ilə bağlıdır. Etnonim şam və -lı komponentlərindən ibarətdir. E. Əhmədova M.H.Vəliyevə əsaslanaraq yazır ki, "Şamlı səlcuqlardan ibarət olub, monqolların hücumları zamanında Türkiyəyə hicrət edib Şamda məskun olublar. Adlarının şamlı olması da bunu göstərir. Onlar belə bir ad-şamlı adı altında Suriyadan Əmir Teymur tərəfindən İrana köçürülmüş və oradan Azərbaycana gəlmişlər"[Əhmədova E: 2007, s.76].

Qaradağlı tayfasının adı Cənubi Azərbaycanın Qaradağ mahalından götürülmüşdür. Mənbələrdən alınan məlumatlara əsasən, Səfəvilərin hakimiyyəti ələ keçirməsindən sonra bu tayfalar müəyyən ərazilərdə məskunlaşmışdılar. M.Vəliyev qaradağ tayfası ilə bağlı yazir: «Şahsevənlər: qədirli, ilxıçi və qaradağlı kimi digər Səlcuq türkləri ilə də iltihaf etdilər. Axırıncılar İran Azərbaycanında olan Qaradağın adından öz adlarını əxz etdilər. Çünki haman dağın ətəklərində qoyunçuluq edirdilər» [Vəliyev M. (Baharlı): 1993, s. 45]. XIX əsrdə «Qafqaz təqvimi»ndə Yelizavetpol quberniyasının Ərəş qəzasında Qaradağlı-Padar, Qaradağlı, Yelizavetpol qəzasmda Qaradağlı, Bakı quberniyasının Quba qəzasında Qaradağlı və Qaradağ, Dağıstan vilayətinin Qunib dairəsində Karadax, Kaytaq-Tabasaran dairəsində Karadağlı kəndləri qeydə alınmışdır. XIX əsrin ortalarında Cənubi Qafqazda Qaradağlı adlı 14 kənd var idi [Budaqov B.Ə., Qeybullayev Q.Ə.: 1998, s.183].

Azərbaycan etnonimlərinin bir hissəsi zooleksemlər əsasında əmələ gəlmişdir. Etnosların bəziləri öz adlarının totem hesab etdikləri heyvanın adından götürmüşdür. Zooleksemlərdən yaranan etnonimlərin bir qisminin tərkibində iştirak edən sözlərin mənası müasir Azərbaycan dili baxımından məlumdursa (qurd, ilanlı, keçili, gomuşçu və s.), bəzilərinin ifadə etdikləri mənalar başa düşülmür. Onlardan bir neçəsinə diqqət yetirək.

Fəzulullah Rəşidəddin «Oğuznamə» əsərində türk mənşəli *barak* tayfasının adını qeyd edir [Rəşidəddin: 2006, s. 22]. Faruk Sümər yazır: «Baraq kəlməsinin çox sıx tüklu bir köpəyə deyildiyini və adam adı olaraq işləndiyini bilirik: Baraq Hacib, Baraq xan, Baraq Rəis. Bu oymağın öz adını bir şəxsdən aldığına şübhə yoxdur» [Faruk.Sümər: 1992.s.201]. K. Vəliyev Barak it adı ilə bağlı yazır: Barak adı verilən uzun tüklü caydaq köpəyi şamerlər müqəddəs sayırdılar. Bu it yaxşı qaçır, ovu yaxşı saxlayırdı. Şamanlar əfsanəyə görə Barak adlı itə minərək göyə çıxırdılar. Qırğızlar da cins itə Barak deyirlər [Vəliyev K.N:1988, s.21].

Türkdilli tayfalardan biri də Təkəli olmuşdur. Xızı rayonunda, Gürcüstanın Borçalı bölgəsində, Ermənistanın Dərəçiçək bölgəsində Təkəli kənd adları eyniadlı tayfanın adını daşıyır. Azərbaycanın bəzi bölgələrində təkə "erkək keçi", "vəhşi keçi, dağkeçisi" mənalarında işlənir. Şair və yazıçıların dilində bu leksik vahidə rast gəlinir. On addım kənarda yatmayır təkə; Gəzinir oylağa baş çəkə-çəkə. (S.Vurğun.)

Zoonimlərdən yaranan tayfa adlarından biri də sonqurludur. XIX əsrdə İrəvan quberniyasının Aleksandropol qəzasında Sunqurlu kəndi mövcud olmuşdur. Sunqur oğuz boyları arasında totem olmuşdur. «Kitabi-Dədə Qorqud» dastanında Qazan xan müqəddəs, ilahi onqon sunqur quşunda kökünün olmasını fəxrlə anır:

Ağ sunqur quşu erkəyində bir köküm var
Ala ördək, qara qazın uçurmaya.

A.Bayramov Oğuz türklərinin onqonu olan

bu quş adının daha sonra tayfa adına çevrildiyini və quşun adının şonqurmaq, şonqarmaq feli ilə əlaqədar olduğunu yazır [Bayramov A: 2003, s.90]. Qədim türk dillərində şahin quşunun adı sonqur/sunkar formalarında işlənmişdir [Древнетюркский словарь, 1969, s.508, 514, 525].

Etnonimlərin bir qismi dini xarakterli sözlər əsasında formalaşmışdır. Nümunə olaraq sofu sözü ilə əlaqədar olaraq yaranmış sofular, sofulu tayfa adını göstərmək olar. Sofular türk mənşəli tayfalardandır. Bu etnonim “sofi” sözündən əmələ gəlmişdir. Söz “dini ehkamlardan kənara çıxmayan adam”, “zahid”, “dindar”, “müsəlman” mənasındadır. [Əhmədova E: 2017. s. 82]. Ağdam, Qazax rayonununda Sofulu kəndi, Tovuz rayonunda Sofular kəndi mövcuddur. Azərbaycan etnonimlərinin bir hissəsi geyim adlarından əmələ gəlmişdir. Qəbilənin, tayfanın, nəsilin, tirələrin adları tayfa başçısının və ya üzvünün müəyyən rəng və formada olan geyim əşyası ilə bağlı olaraq verilmişdir. Qarabörk etnonimi “qara” və “börk” komponentlərinin birləşməsindən əmələ gəlmişdir. Abidələrdə “börk” sözü “papaq” mənasında işlənmişdir. Buradakı “qara” sözünü rəng mənasında işlədirlər. Qarabörkün qarapapaq olması qeyd olunmuşdur. “Yəni bu tayfa üzvləri qara quzu dərisindən papaq geyindiklərinə görə onlara bu ad verilib. Azərbaycanda, xüsusilə, Şirvan zonasında qarbörk tayfası XVI əsrdə qüvvətli, cəngavər bir tayfa kimi tanınmışdır” [Əhmədova E: 2017. s. 12]. Hazırda Ucarda Qarabörk oykonimi tayfanın adını bildirir. Bu oykonim etnotoponim kimi işlənir. Qarabörk etnonimi qarapapaq, qaraqalpaq tayfa adları ilə eyni mənanı ifadə edirlər. Sənət, peşə, məşğuliyyət bildirən sözlər əsasında formalaşan türk mənşəli tayfa adlarına etnonimik sistemdə rast gəlinir. Azərbaycanın qədim sakinləri arasında sadak tayfaları olmuşdur. Sadak qədim türk sözü olub, «ox qabı» mənasında işlənmişdir. Sadaq leksik vahidinə «Kitabi-Dədə Qorqud» dastanında rast gəlinir. Əmək, peşə, sənət bildirən sözlər əsasında yaranan tayfa adlarından biri də sabançudur. Saban sözü müasir Azərbaycan dilində işlənmir. Bu qədim türk sözüdür və bəzi qohum türk dillərində “kotan” mənasında işlənməkdədir. Türk xalqlarının həyatında əkinçilik böyük yer tutduğundan onu bayram səviyyəsində qeyd edirlər. Tatarıstanda Sabantuy xalq bayramı («Saban» - «kotan+tuy, toy») keçirilir. Sənət, peşə, məşğuliyyət bildirən qədim türk sözü əsasında formalaşan tayfa adlarından biri də kəpənəkçi tayfa adıdır. “Kitabi-Dədə Qorqud” dastanında kəpənək sözü “yapıncı” mənasında işlənmişdir. Azərbaycan onomastik sistemində qədim türk sözləri əsasında yaranan tayfa adları çoxdur.

**Nəticə.** Azərbaycan etnonimlərinin leksik-semantik xüsusiyyətlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu onomastik vahidlər ümumtürk düşüncə tərzinin məhsuludur. Azərbaycan dilində işlənən etnonimlər əmələ gəlmə xüsusiyyətlərinə görə antroponimlərdən əmələ gələn etnonimlər, toponimlərdən əmələ gələn etnonimlər, etnonimlərdən əmələ gələn etnonimlər, zoonimlərdən əmələ gələn etnonimlər, sənət, peşə, məşğuliyyət və s. bildirən sözlərdən əmələ gələn etnonimlər, dini xarakterli sözlərdən əmələ gələn etnonimlər, geyim və tayfaya aid digər əşyaların adlarından əmələ gələn etnonimlər, zahiri əlamət, rəng və s. bildirən sözlərdən əmələ gələn etnonimlər şəklində qruplaşdırmaq olar.

## ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. IV cild. Bakı: Şərq-Qərb, 2006,709 s.
2.Rəşidəddin. Oğuznamə. Bakı: Elm. 2006, 111 s.
3. Əbülqazi Bahadur xan Şəcəreyi tərakimə (Tükmənlərin soy kitabı). Bakı, Elm. 2002 s . 146
4. Əhmədov T.M., Azərbaycan toponimikasının əsasları. Bakı: Bakı Universiteti, 1991, 312 s.
5. Əhmədova E. Azərbaycan etnonimləri. Bakı: 2007, 127 s.
6. Vəliyev M. (Baharlı). Azərbaycan (coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat), Bakı: Azərnəşr, 1993, 208 s.
7. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 452 s.
8. Faruk.Sümər. Oğuzlar. Bakı: Yazıçı, 1992,432 s.
9. Vəliyev K.N. Elin yaddaşı, dilin yaddaşı. Bakı: Gənclik, 1988, 280 s.
10. Bayramov A. Kitabi-Dədə Qorqud və Qafqaz. Bakı, 2003, 123 s.
11.Древнетюркский словарь. Л.: Наука, 1969, 676 с
12. Əhmədova E. Azərbaycan dilinin etnonimlər lüğəti. Bakı 2017. 103 s.

**Tunzala BAKHSHIYEVA**

## AZERBAIJANI ETHNONYMS

## SUMMARY

To study ethnonyms, it is important to refer to historical sources, works of historians, geographers, toponymic lexicon. Without considering them, there can be no perfect study of ethnonyms. By researching tribal names, it is possible to obtain materials for other areas of onomastics. The lexical units involved in the formation of some Azerbaijani ethnonyms are outdated in terms of the modern Azerbaijani language. The etymological analysis of tribal names based on ancient Turkic words is important. Some ethnos names reflect ancient phonetic, grammatical, lexical and semantic features. The lexical units involved in the formation of some Azerbaijani ethnonyms are outdated in terms of the modern Azerbaijani language. The etymological analysis of tribal names based on ancient Turkic words is important. Ethnonyms used in the Azerbaijani language are ethnonyms formed from anthroponyms, ethnonyms formed from toponyms, ethnonyms formed from ethnonyms, ethnonyms formed from zoononyms, art, profession, occupation, etc. ethnonyms formed from words denoting, ethnonyms formed from words of a religious nature, ethnonyms formed from the names of clothes and other items belonging to the tribe, appearance, color, etc. can be grouped in the form of ethnonyms formed from words denoting.

**Keywords:** *ethnonym, tribe, name, research, research*

**Тунзала БАХШИЕВА**

## АЗЕРБАЙДЖАНСКИЕ ЭТНОНИМЫ

## РЕЗЮМЕ

Для изучения этнонимов важно обращаться к историческим источникам, исследованиям историков, географов, топонимической лексике. Без их рассмотрения невозможно безупречное изучение этнонимов. Изучая племенные названия, можно получить материалы для других областей ономастики. Лексические единицы, участвующие в образовании некоторых азербайджанских этнонимов, устарели с точки зрения современного азербайджанского языка. Важен этимологический анализ названия плен на основе древнетюркских слов. Имена некоторых этносов отражают древние фонетические, грамматические, лексические и семантические особенности. Лексические единицы, участвующие в образовании некоторых азербайджанских этнонимов, устарели с точки зрения современного азербайджанского языка. Важен этимологический анализ названий племен на основе древнетюркских слов. Этнонимы, используемые в азербайджанском языке, - это этнонимы, образованные из антропонимов; этнонимы, образованные из топонимов; этнонимы, образованные из этнонимов; этнонимы, образованные из зоонимов, а также из названий профессий, рода занятий.; этнонимы, образованные из слов религиозного характера; этнонимы, образованные из названий одежды и других предметов, принадлежащих к племени, внешнего вида, цвета и т. д. могут быть сгруппированы в виде этнонимов, образованных от обозначающих слов.

**Ключевые слова:** *этноним, племя, название, исследование, исследование*